# "Nənə qızlar" Abdal-Gülablıda

## Ağdamın məşhur folklor ansamblı 32 ildən sonra vətəninə qovuşdu



**Bir zamanlar Qarabağ adlı cənnətməkan diyarın sularından gül ətri gələn Abdal-Gülablı kəndində "Nənə qızlar" adlı folklor ansamblı yaranmışdı...**

**O ansamblın deyib gülən, çox şən, qıvraq, şikəstələri dağ-daş yandıran nənəsi, bir-birindən gözəl, məlahətli səsə malik gənc qızları var idi...**

**Onlar Azərbaycanın bütün bölgələrini qarış-qarış gəzərək rəngarəng repertuarlı konsertlər verər, möhtəşəm çıxışları ilə tamaşaçıların ürəklərini fəth edərdilər. Ancaq musiqi beşiyi Ağdamın Abdal-Gülablı kəndində təməli qoyulan ansamblın mahnılı-musiqili, çal-çağırlı günlərinə 1993-cü ildə - doğma yurdlarının işğalı ilə nöqtə qoyuldu...**

**Ansamblın qızlarının hərəsi bir tərəfə üz tutdu. "Nənə qızların" nənəsi - 50 ildən artıq mədəniyyətimizin inkişafına xidmət göstərən, səsi, ifası ilə hər kəsi heyran edən Xavər Nuriyeva isə Bakı şəhərində yataqxanaya sığınaraq bir daha mahnı oxumadı...**

### Həsrət Ağdamda bitdi

"Nənə qızlar" folklor ansamblının vətən və səhnə həsrəti bir qərinədən sonra Ağdamda başa çatdı. 2023-cü il noyabrın 8-də Ağdamın Quzanlı qəsəbəsində keçirilən Zəfər bayramında "Nənə qızlar" yenidən sevənlərinin görüşünə gəldi.

Bu ilin payızında isə ansambl doğulub Azərbaycana səs saldığı ünvana - Abdal-Gülablıya, yenidən bəxtəvər çağlarına qovuşdu. "Nənə qızlar"ın keçmiş üzvləri ötən günlərin xoş və ağrı-acılı xatirələrini bölüşərək kövrək anlar yaşadıqları yurdlarında olmağın xoşbəxtliyini yaşadılar. Onlar vaxtilə Abdal-Gülablıda fəaliyyət göstərmiş sanatoriya ərazisindəki kəhriz ətrafında rəqs edib, mahnı oxudular.

"Nənə qızlar" ansamblının üzvlərinin şən avazları yenə də Abdal-Gülablını, Ağdamı, bütün Qarabağı bürüdü… Bir zamanlar olduğu kimi…

"Nənə qızlar"ın "nənəsi" Sabirə Cəfərova həmin gün yaşadığı hissləri bizimlə belə bölüşdü: "Ağdamda möhtəşəm duyğular yaşadıq. 32 ildən sonra doğma kəndimizə qayıdış, "Nənə qızlar" ansamblı ilə yenidən doğma yurdda çıxış etmək mənim üçün tarixi hadisədir. Bəlkə də yuxularımızda belə görə bilməyəcəyimiz günləri yaşadıq. Vaxtilə kənddə konsert üçün yerimiz var idi. "Nənə qızlar" ansamblı hər həftə orada konsert verirdi. Bundan başqa, böyük tədbirlərdə də iştirak edirdik. Uğurlarımız çox idi. İllərdən sonra ansambl yenidən fəaliyyətə başlayıb, onun yeni üzvləri var. Ümid edir ki, Abdal-Gülablı kəndinə qayıdışdan sonra yeni-yeni layihələrlə ansamblımız Azərbaycan folklor sənətinə öz töhfəsini verəcək, bundan sonra da böyük uğurlar qazanacaq".

### Moskvada havalanan "Qarabağ" şikəstəsi

1982-ci ildə Mədəniyyət Nazirliyindən tövsiyə olunmuşdu ki, bütün rayonların kənd klublarında folklor ansamblı yaradılsın. Gülablı kənd mədəniyyət evinin müdiri ustad Aşıq Xaspolad Mirzəliyevlə Xavər Nuriyeva kənddə istedadı, qabiliyyəti olan on yeddi qızı yığıb məşhur "Nənə qızlar" folklor ansamblını yaratdılar. Ansambl uzun illər səhnədə xalqımızın keçmişini, məişətini, adət-ənənəsini öz ifalarında yaşatdı. Paytaxt Bakıda, respublikanın digər ərazilərində təşkil olunan tədbirlərdə iştirak etdi. Ağdamda "Natəvan qızlar bayramı", "Xarıbülbül" festivalı, Bahar bayramı və digər dövlət səviyyəli tədbirlərdə xüsusi çıxışları olan ansamblın fəaliyyəti Azərbaycan televiziyası ilə də dəfələrlə nümayiş etdirildi. "Nənə qızlar" folklor ansamblı istedadını təkcə Azərbaycanda deyil, bütün keçmiş Sovet İttifaqında nümayiş etdirdi.



1987-ci ildə ansambl Moskvada M.Qorki adına Mədəniyyət Evində keçirilən "Qarabağ toyu" adlı kompozisiyaya dəvət alır. Xavər Nuriyevaya bu toyda ana rolunu ifa etmək tapşırılır. Festivalda "Qarabağ" şikəstəsini müvəffəqiyyətlə ifa edən "Nənə qızlar" ansamblının "nənəsi" Xavər Nuriyeva xüsusi medalla təltif olunur. Daha sonra o, Moskvada keçirilən "Azərbaycan günləri" festivalında iştirak edir. Bu festivalda "nənə" ilə birgə 17 qızın hər biri ayrı-ayrılıqda II dərəcəli mükafata layiq görülür.

### Yeni nəfəs

Çal-çağırlı günləri Ağdamın işğal olunması ilə sona çatan "Nənə qızlar" ansamblına Zəfər sayəsində yeni nəfəs verilir.

Bakı Dövlət Universitetinin "Dədə Qorqud" elmi tədqiqat laboratoriyasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, folklorşünas Almara Nəbiyeva "Biz qayıtdıq, Vətən!" rubrikasında danışır ki, "Nənə qızlar" folklor ansamblının fəaliyyətini Xavər nənədən halallıq alaraq bərpa edirik: "44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra qərara gəldik ki, "Nənə qızlar" ansamblını bərpa edək. Ansamblın veteranlarını tapdıq, kollektivə yeni istedadlı qızlar da dəvət etdik. 2023-cü il Zəfər Günündə ansambl Ağdamın Quzanlı kəndində səhnədə ilk çıxışını etdi. Həmin vaxtdan "Nənə qızlar" folklor ansamblı ölkəmizdə keçirilən tədbirlərdə iştirak edir".

Bu ilin sentyabrında "Nənə qızlar" ansamblının üzvlərinin Qarabağı ziyarətə getməsinin böyük xoşbəxtlik olduğunu dilə gətirən Almara xanım deyir ki, yurdların viranə görmək onların hər birinin ürəyini ağrıtsa da, bu, doğma torpaqlarında olmağın sevinc hissini üstələyə bilmədi.

- Onilliklər boyu həsrətində olduğumuz Xocalını, Xankəndini, Şuşanı, Ağdamı, kəndimiz Abdal-Gülablını "Nənə qızlar" ansamblı ilə birlikdə ziyarətə getdik. Əvvəlcə tarixə qızıl qanla yazılan Xocalıya üz tutduq. Ağrı-acılı illərin xatirələri ilə kövrəldik, qaysaq bağlayan yaralarımız yenidən göynədi... Sonra Xankəndiyə, mədəniyyət beşiyimiz Şuşaya getdik. Cıdır düzünə, İsa bulağına qalxdıq. Ansamblın "nənə"si Sabirə xanım burada "Qarabağ şikəstəsi"ni elə yanıqlı ifa etdi ki, ziyarətə gələnlərin hamısı duyğulandı...

### "Evimizdən geriyə quruca torpaq qalıb"

- Sonra Ağdama yollandıq. Əvvəlcə Baharlı qəsəbəsində şəhid Müsfiq Abbasovun ailəsini ziyarət etdik. Qəhrəman şəhidimizin xatirəsini anası Luminə xanım və qardaşı Xəqaninin ailəsi ilə birgə yad etdik, onun, Vətən uğrunda canını qurban verən bütün oğul-qızlarımızın ruhlarına dualar oxuduq.

33 ildən sonra Ağdam şəhərini və doğma kəndimiz Abdal-Gülablını ziyarət etdik. Kəndimiz vəhşi düşmənlər tərəfindən xarabalığa çevrilib. Ətrafda tanış iz, hansısa bir əlamət qoymayıblar. Abdal-Gülablıdan sadəcə bir-iki nişanə qalıb: yarıuçuq divarları qalmış məscid və məktəb. Amma evlərimizdən əsər-əlamət yoxdur. Göz yaşları içərisində baxdım evimizin yerinə. Uşaqlıq xatirələrim gözlərimin önündə canlandı. "Kənd məhlə"si deyilən bu yurdda doğulmuşam, iməkləmişəm, yerimişəm, böyümüşəm, yad etməyə getmişəm, necə deyərlər, buradan pöhrələnib qanad açmışam... Ancaq indi evimizdən geriyə quruca torpaq qalıb. Bağımız quruyub. Heç qayınatam Şiralının ikimərtəbəli cah-cəlallı evindən, bağ-bağatından da əsər-əlamət yoxdur…

Gəlimli-gedimli el-obamız viran qalıb. Haradan bilərdik ki, vaxt gələcək, kəndimiz belə səssiz-səmirsiz xarabalığa çevriləcək?!

Abdal-Gülablını belə görmək məni dəhşətə gətirdi… Düşmən nəinki buranı, ümumiyyətlə, Ağdam şəhərini, rayonun bütün kəndlərini yerlə-yeksan edib. Bəli, çox təəssüf ki, belədir...

Abdal-Gülablı kəndini Qarabağın digər yaşayış məntəqələrindən fərqləndirən əsas cəhət burada muğamla yanaşı, aşıq musiqisinin də inkişaf etməsidir. Bir çox tanınmış ustad aşıq, xanəndə və ifaçı bu kəndin yetirməsidir. "Nənə qızlar" ansamblının üzvlərinin əksəriyyəti də Abdal-Gülablıdandır.

Səfər zamanı "Nənə qızlar" ansamblının üzvləri ilə birgə Aşıq Valehlə həyat yoldaşı Zərnigarın məzarını ziyarət etdik. Vaxtilə memar Vahid Zülfüqarov Zərnigar xanımın məzarındakı büstü hazırlayanda öz həyat yoldaşı ingilis dili müəllimi Aidə Zülfüqarovanın şəklindən istifadə edərək onun obrazını yaratmışdı. Səfər zamanı Aidə xanım da bizimlə birlikdə idi. Hamımız ürək ağrısı ilə bu məzarların da vandal düşmən tərəfindən dağıdıldığına şahidlik etdik.

Onu da deyim ki, Abdal-Gülablıya gedəndə Bakının Bilgəh kəndində uyuyan doğmalarımın torpağından da özümlə götürmüşdüm. O torpağı kəndimizin məzarlığında uyuyan əzizlərimizin torpağına qovuşdurmaq istəyirdim. Lakin onilliklər ərzində məzarlığı keçilməz tikanlığa çevrildiyi üçün bu arzumu yerinə yetirə bilmədim…

Biz illərlə vətəndə "vətənsiz" olmağın dərdi ilə yaşadıq. İndi dədə-baba torpaqlarımıza ziyarətə gedəndə o yurdları tar-mar görmək dərdi hamımızı sarsıdır. Ancaq ürəklərimizdə böyük təsəllimiz var ki, daha Qarabağı sevinc göz yaşları ilə "yuyuruq"… Bilirik ki, dağıdılan şəhər və kəndlərimizin hamısı bərpa olunacaq və bütün keçmiş məcburi köçkünlərimiz qayıdış köçləri ilə isti ocaqlarına dönüb yenidən xoşbəxt yaşamağa başlayacaqlar.

### Vətəndə…

Bəli, bir zamanlar yurdlarından didərgin düşən keçmiş məcburi köçkünlərimiz indi böyük sevinclə "Biz qayıtdıq, Vətən!" deyirlər. Ömürlərinin ən gözəl xatirələrini özündə daşıyan kəndlərdə, qəsəbələrdə, şəhərlərdə yenidən yaşam qurmağa dönürlər, məcburiyyətdən nöqtə qoyduqları fəaliyyətlərini bərpa edirlər. "Nənə qızlar" ansamblı da bir qərinədən sonra doğma vətənin - Ağdamın azadlığının qururu ilə səhnələrdə böyük şövqlə çıxışlar edir. Ansamblın üzvləri tezliklə Abdal-Gülablıdan Azərbaycana səs salacaqları günləri səbirsizliklə gözləyirlər…

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 24 sentyabr (№208).- S.15.